

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 may 2024-cü il №39 (2850) https://mod.gov.az Qiymətı 30 qəpik


## Prezident İlham Əliyev Müstəqillik Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 28 May - Müstəqillik Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımdakı fotonun üzərində bu sözlər yer alıb: “28 May - Müstəqillik Günü”.

## Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqillik Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 28 May - Müstəqillik Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: “Müstəqillik günü münasibətilə bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, hamıya möhkəm cansağlığı və xoşbəxtlik, Vətənimizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram!”.

## Türkiyə Prezidenti: “Bir millət, iki dövlət” ruhuna sahib olduğumuz Azərbaycanın 28 May - Müstəqillik Gününü təbrik edirəm




"Bir millət, iki dövlət" ruhuna sahib olduğumuz Azərbaycanın 28 May - Müstəqillik Gününü təbrik edir, bütün azərbaycanlı qardaşlarımızın haqlı qürur və sevincini ürəkdən bölüşürəm.

AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi "X" hesabında təbrik mesajında yer alıb.

Türkiyə Prezidenti mesajında "Müstəqillik uğrunda şəhid olan qəhrəmanlarımızı hörmət və rəhmətlə yad edirəm", - deyə bildirib.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Ağdam rayonunda və Xocalı şəhərində olublar.

Dövlətimizin başçısı Ağdam rayonunun Tağıbəyli, Güllücə, Nəmirli və Şotanlı kəndlərinin təməlini qoyub. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə sakinlərlə söhbət ediblər.

Prezident **İlham Əliyev**: Salaməleyküm.

**Sakinlər**: Cənab Prezident, xoş gəlmisiniz. Qədəmləriniz mübarək. Allah Sizi qorusun.

**Mehriban xanım Əliyeva**: Sizi təbrik edirəm.

**Sakin**: Çox sağ olun.

Prezident **İlham Əliyev**: Salam. Siz də xoş gəlmisiniz.

**Sakin**: Allah Sizi qorusun. Allah Sizə cansağlığı versin. Sizinlə fəxr edirik. Nə yaxşı ki, varsınız.

Prezident **İlham Əliyev**: Çox sağ olun. Xocalı necə gözəlləşib.

**Sakin**: Gözəldir, Sizin sayənizdə, hamımız minnətdarıq. Bütün xocalılılar Sizə minnətdardır, cənab Prezident. Nə yaxşı ki, bizim belə Prezidentimiz var. Vallah, Sizinlə fəxr edirik. Sevincimizin həddi-hüdudu yoxdur.

Prezident **İlham Əliyev**: Sağ olun. Bu gün bayram günüdür, Müstəqillik Günüdür. İlk növbədə, Sizi Müstəqillik Günü münasibətilə təbrik edirəm.

**Sakin**: Çox sağ olun, minnətdarıq.

Prezident **İlham Əliyev**: Bu gözəl gündə xocalılılar artıq qayıdırlar.

**Sakin**: Bəli, görüşdük.

Prezident **İlham Əliyev**: Həm görüşürük, həm də ki, birinci 20 ailə Xocalıya qayıdır. Bu münasibətlə də sizi ürəkdən təbrik etmək istəyirəm.

**Sakinlər**: Çox sağ olun, Sizə minnətdarıq.

Prezident **İlham Əliyev**: Əlbəttə ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur.

**Sakinlər**: Bəli, gözəlləşib. Çox sağ olun.

Prezident **İlham Əliyev**: Əvvəlkindən də daha gözəl şəhərdir və daha da gözəl olacaq. Bu gün sadəcə olaraq, birinci mərhələdir. Bu gün, əslində, Böyük Qayıdış proqramının Xocalı səhifəsi yazılır. Yaxın gələcəkdə digər xocalılılar da buraya qayıdacaqlar, əminəm ki, böyük həvəslə.



**Sakin**: Siz onsuz da qədəmlərinizi haraya qoyursunuzsa, orada gül-çiçək canlanır, bütün torpaqlar çiçəklənir.

Prezident **İlham Əliyev**: Sağ olun. Xocalılılar müxtəlif yerlərdə məskunlaşmışdılar və müstəqillik illərini Xocalıdan ayrı keçirməli oldular. Müstəqilliyin bərpası elan olunandan dörd ay sonra Ermənistan Xocalı soyqırımını törətdi, günahsız insanları qətlə yetirdi, insanlığa qarşı cinayət törətdi. Xocalılılar faktiki olaraq müstəqilliyin bütün illərini başqa-başqa yerlərdə keçirməli oldular, o cümlədən Ağcakənd kəndində. Bildiyiniz kimi, birinci köçkün qəsəbəsi məhz Ağcakənd qəsəbəsində xocalılılar üçün Ulu Öndərin iştirakı ilə salınmışdır.

**Sakin**: Qisasımızı aldınız, qurban Sizə.

Prezident **İlham Əliyev**: Mən də, Mehriban xanım da o vaxt orada idik və o vaxtdan bu günədək, görün, nə qədər gözəl tarix yazdıq, Qarabağı tam azad etdik. Mən bilirəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda xocalılılar inanırdılar, bilirdilər ki, bu gün də gələcək.

**Sakinlər**: Bəli, Sizə inanırdıq.

Prezident **İlham Əliyev**: Mən də bilirdim, şübhə etmirdim, sadəcə olaraq, onun vaxtı var idi. Onu da təxmin edirəm, xocalılılar bəlkə də gözləmirdilər ki, bu, bu qədər tez baş verəcək.

**Sakinlər**: Bəli.

Prezident **İlham Əliyev**: Çünki müxtəlif fikirlər var idi, o cümlədən Ermənistanda müxtəlif gözləntilər var idi. Burada - Xocalıda, Xankəndidə, o vaxt hələ ki, azad edilməmiş digər şəhər və kəndlərimizdə separatçılar at oynadırdılar. Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdır. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Sakinlər**: Amin!

Prezident **İlham Əliyev**: Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq. Onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. Halbuki Ermənistanda revanşistlər də kifayət qədər çoxdur. Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik.

Bu gün hərbçilər üçün inşa edilmiş evlərlə də tanış oldum. Bütün Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və burada artıq bu istiqamətdə işlər görülür ki, Azərbaycan xalqı əbədi əmin olsun, bir daha bu faciələr bizim xalqımızın başına gəlməyəcək.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi

(Əvvəli 1-ci səhifədə)

Bu gün bax, burada - Xocalıda, - cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda, - görüşməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Məhz Müstəqillik Günündə mən sizinlə yenidən görüşmək istəmişəm. Üç ay bundan əvvəl - fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır.

**Sakinlər**: Çox gözəldir, cənab Prezident, Allah Sizə dəyməsin.

Prezident **İlham Əliyev**: Həm abad, gözəl evlər, istirahət zonaları. O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz. Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız - kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm, - Bakıda və digər yerlərdə qəsəbə salınmışdır, - deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi. Sizi təbrik edirəm. Sizə cansağlığı arzulayıram.

**Sakinlər**: Çox sağ olun, minnətdarıq. Allah Sizi qorusun.

Prezident **İlham Əliyev**: İndi də açarları sizə təqdim edək.

* * *

Dövlətimizin başçısı və birinci xanım evlərin açarlarını sakinlərə təqdim ediblər.

Sonra xatirə şəkli çəkdirilib.

* * *

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva sakinlərlə birlikdə Xocalı şəhərini gəziblər, görülən işlərlə tanış olublar.

Prezident **İlham Əliyev**: Xocalının indi quruluşu dəyişir, əvvəllər burada nə olub, yadınızdadır?

**Sakinlər**: Çox dəyişib. Bəli, əlbəttə, yadımızdadır. Bura dairə idi, Mədəniyyət evi. Yanğın meydançası var.

Prezident **İlham Əliyev**: O vaxt qəsəbənin mərkəzi bura idi?

**Sakinlər**: Xeyr, bura baş hissə idi, mərkəz bir az qabaqdadır. Təqdimat olacaq yer.

Prezident **İlham Əliyev**: Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Gedək ona bərabər baxaq.

**Sakinlər**: Allah Sizin canınızı sağ eləsin. Allah köməyiniz olsun. Bu sevinci bizə yaşatdınız. Allah Sizi var eləsin.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Sakin**: Allah Sizi var eləsin. Sizin sayənizdə gəlmişik bu gözəl yerə, gözəl Vətənə. Bu gün gözəl Bayrağın altında sevinci yaşayırıq. Bundan gözəl nə ola bilər?

Prezident **İlham Əliyev**: Bəli, Xocalı indi böyük şəhər olacaq.

**Sakin**: Allah Sizi var eləsin.

Prezident **İlham Əliyev**: Bu, hələ birinci mərhələdir.



**Sakin**: Allah Mehriban xanımı, övladlarınızı xoşbəxt eləsin. Vallah, bundan gözəl xoşbəxtlik nə ola bilər? Yaşayırıq, gözəldir, hər şey yaxşıdır.

Prezident **İlham Əliyev**: Siz buna layiqsiniz. Vətəninizdən 30 ildən çox məhrum olmusunuz.

**Sakin**: Bəli, cənab Prezident, demək olar ki, 30 ildir. Bizim əhali XX əsrin faciəsini yaşayıb, Xocalı faciəsini. Burada olan bütün insanlar o faciədən çıxmış insanlardır. Bütün bunlara baxmayaraq, biz nə qədər kədərli olsaq da, sevincimizin həddi-hüdudu yoxdur. Kədərliyik ona görə ki, Xocalı faciəsini yaşamışıq, Xocalı faciəsindən çıxmışıq. Xocalıda elə bir ailə yoxdur ki, həmin faciə vaxtı itki verməsin, şəhid verməsin. Yəni, bütün bunlara baxmayaraq, Sizin xarici və daxili siyasətiniz nəticəsində bizim torpaqlarımız azad edildi. Daha sonra keçən ilin sentyabr ayında antiterror əməliyyatı nəticəsində Xocalımız separatçı ermənilərdən təmizləndi və azad edildi. Sizin sayənizdə qısa müddət ərzində Xocalımız belə gözəlləşdi.

Prezident **İlham Əliyev**: Səkkiz aya.

**Sakinlər**: Səkkiz aya, bu, möcüzədir. Səkkiz aya bax belə quruculuq işləri aparıldı.

Prezident **İlham Əliyev**: Mən xüsusi tapşırıq vermişdim, antiterror əməliyyatından dərhal sonra dedim ki, birinci növbədə biz Xocalını bərpa etməliyik.

**Sakin**: Cənab Prezident, Xocalıda ilk şəhid mənim qardaşım olub. 1991-ci il sentyabr ayının 9-dan 10-na keçən gecə 25 yaşında.

Prezident **İlham Əliyev**: Necə şəhid olub? Döyüşlər gedirdi, yoxsa hücum etmişdilər?

**Sakin**: Yox, dağdan "Qrad" atdılar, yox, "Alazan" atdılar. Düşdü, qardaşım da postda idi, həmin vaxt biz kəndi qoruyurduq.

Prezident **İlham Əliyev**: Hansı tərəfdən atırdılar?

**Sakinlər**: Baxın, o dağın bu üzündən, meşəlikdən. Allah Sizə dəyməsin, bu xoşbəxtliyi bizə Siz yaşatmısınız. Bunu mən həmişə demişəm, mənim birinci arzum olub Sizi xanımınızla bax belə, yan-yana, yaxından görüm.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Sakin**: Mən onu bilirəm ki, dünyada Sizin kimi Prezident olmayıb, olmayacaq da. Həqiqətən, vicdan haqqı. Bunu hamı deyir, təkcə bizim Xocalı camaatı yox, bütün Qarabağ, bütün Azərbaycan xalqı. Bu, son 200 ildə tariximizdə olmayan bir şeydir. İndi Sizin sayənizdə biz qalib xalq kimi yaşayırıq.

Prezident **İlham Əliyev**: Siz yaxşı bilirsiniz ki, o vaxt bura Dağlıq Qarabağ Muxtar Vilayəti idi və burada yaşayan azərbaycanlılar da istər-istəməz erməni rəhbərlərə tabe olmalı idilər.

**Sakinlər**: Doğrudur. Yüzəyüz elə idi.

Prezident **İlham Əliyev**: Sizi nə qədər sıxışdırırdılar. Mən xocalılılarla çox görüşmüşəm, hətta burada tam məktəb də olmayıb.

**Sakinlər**: Olmayıb.

Prezident **İlham Əliyev**: Olmayıb ki, getsin uşaqlar orada oxusun. Orada da min dənə əzab-əziyyət çəkirdilər.

**Sakinlər**: Bütün yarışlara gedəndə də bizi sıxışdırırdılar, yer vermirdilər. Deyirdilər ki, azərbaycanlısan.

Prezident **İlham Əliyev**: Bir tərəfdə Xankəndi, bir tərəfdə Əsgəran.

**Sakinlər**: Qalmışdıq bunların arasında. Həqiqətən, cənab Prezident, Siz Şuşadan, - həmin kadrlar mənim yadımdan çıxmır, - qardaş ölkənin Prezidenti cənab Ərdoğanla Xankəndiyə baxanda dediniz ki, olacaq.

Prezident **İlham Əliyev**: Olacaq.

**Sakin**: Bu gün mən şadam ki, Xocalıdayam. Yəni, 32 il bundan qabaq Xocalı itirdik. Mən əsir düşmüşdüm, yaralanmışdım.

Prezident **İlham Əliyev**: Əsir düşmüşdün?

**Sakin**: Xankəndidə mən həmin yerə getmək istədim, mənə dedilər ki, olmaz.

Prezident **İlham Əliyev**: Xankəndidə əsir düşmüşdünüz?

**Sakin**: Xocalı faciəsində yaralanmışdım, Xankəndidə saxlayırdılar.

Prezident **İlham Əliyev**: Yox, gedib baxmaq olar.

**Sakin**: Yəni, həmin yeri təxmin etdim ki, necə gətirib aparırdılar.

Prezident **İlham Əliyev**: Gedib görərsiniz o yerləri. Çünki sentyabr ayından artıq Xankəndiyə də köç başlayır.

**Sakinlər**: İnşallah.

Prezident **İlham Əliyev**: Birinci köçən tələbələr və onların müəllimləri olacaqlar. Qarabağ Universiteti fəaliyyətə başlayır. Ona görə bir tərəf olacaq Xankəndi, bir tərəf Ağdam. Ağdam şəhərinə də gələn il insanlar qayıdacaqlar.

**Sakin**: İnşallah. Bəli, cənab Prezident, Sizin sayənizdə, Sizin siyasətinizin nəticəsində biz Xocalıya qayıtdıq və işlərimizi gördük. Min şükür.

Prezident **İlham Əliyev**: Allaha şükür. Siz burada əbədi yaşayacaqsınız.

**Sakinlər**: Sağ olun, var olun, Allah Sizə dəyməsin.

Xocalı sakini **Səriyyə Cəfərova**: Cənab Prezident, mən bu evdə yaşamışam.

Prezident **İlham Əliyev**: Bu evdə?

**Səriyyə Cəfərova**: Bəli, bu evdə. Mən Sizi evimizə dəvət edirəm.

Prezident **İlham Əliyev**: Gedək, Mehriban xanım da gəlsin, gedək.

**Səriyyə Cəfərova**: Mən bu evdə doğuldum, bu evdə böyüdüm.

Prezident **İlham Əliyev**: Sonra ermənilər gəlib evinizdə yerləşmişdilər, elədir?

**Səriyyə Cəfərova**: Bəli, ermənilər bu evdə yerləşdilər və mənim anamı şəhid etdilər. Ondan sonra mən bir ailə olaraq üç əmim oğlunu itirdim, anamı itirdim.

Prezident **İlham Əliyev**: Bu xanımın evidir.

**Mehriban xanım Əliyeva**: Eləmi?

**Səriyyə Cəfərova**: Bəli, mənim anam bax bu evi tikib.

Prezident **İlham Əliyev**: Anası da şəhid olub.

**Səriyyə Cəfərova**: Bəli şəhid olub.

**Mehriban xanım Əliyeva**: Allah rəhmət eləsin.

**Səriyyə Cəfərova**: Anam üç qız uşağını atasız böyüdüb. Bu ev mənim üçün çox doğmadır, əzizdir.

**Mehriban xanım Əliyeva**: Bu, həmin evdir, qalıb?

Prezident **İlham Əliyev**: Bərpa etmişik.

**Səriyyə Cəfərova**: Bu evi bizə yenidən bəxş etdiniz, cənab Prezident. Məni evimə gətirən Prezident, Mehriban xanım, Sizə sonsuz təşəkkür edirəm ki, bu, mənim üçün yuxu deyil, xəyal deyil, bu, əsl gerçəkdir. Təşəkkürlər, cənab Prezident.

Prezident **İlham Əliyev**: Sağ olun, gedək evinizə baxaq. Amma əminəm ki, ümidlərinizi heç vaxt itirməmişdiniz.

**Səriyyə Cəfərova**: Heç vaxt itirmədim.

Prezident **İlham Əliyev**: Amma çox vaxt keçib, təbii ki, 32 il başqa-başqa yerlərdə.

**Səriyyə Cəfərova**: Cənab Prezident, 32 il zaman keçdi. Amma mən Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədriyəm, tədqiqatçı jurnalistəm, 2017-ci ildə biz Sizinlə görüşmüşük, cənab Prezident.

Prezident **İlham Əliyev**: Harada?

**Səriyyə Cəfərova**: Mətbuat Günündə görüşmüşük biz və orada Sizinlə səmimi söhbətimiz də olub. Yəni, Siz həmişə xocalılılara xüsusi qayğı ilə yanaşmısınız.

Prezident **İlham Əliyev**: Elədir, düzdür.

**Səriyyə Cəfərova**: Allah elə qismət edib ki, mənə Ulu Öndərlə də görüşmək nəsib olub. 1995-ci ildə o, xocalılıları qəbul edib. Buyurun, cənab Prezident.

Prezident **İlham Əliyev**: Sizin həyətiniz budur?

**Səriyyə Cəfərova**: Bəli, bu həyətdir.

Prezident **İlham Əliyev**: Hə, yaxşıdır.

**Səriyyə Cəfərova**: Mən həmişə, - bayaq qeyd etdiyim kimi, - anamın oğul övladı olmadığına görə, bu həyəti becərirdim və deyirdim ki, qoy mənim anamın ürəyi böyüsün və mənim anam qış vaxtı...

Prezident **İlham Əliyev**: Artıq indi yenidən becərirsiniz.

**Səriyyə Cəfərova**: Yenidən burada elə bir həyat, elə bir gözəllik gördüm ki, bəlkə də bu gün anamın ruhu Sizi görür, bizi görür və nə qədər şad olur.

Prezident **İlham Əliyev**: Ruhu şaddır.

**Səriyyə Cəfərova**: Şad olur ki, onun evinə cənab Prezident gəlib. Bundan gözəl hiss harada var, cənab Prezident?

Prezident **İlham Əliyev**: Çox sağ olun.

**Səriyyə Cəfərova**: Bunu bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkür edirəm.

Prezident **İlham Əliyev**: Çox gözəl tarixi bir hadisədir. Tarixi günləri yaşayırıq.

**Səriyyə Cəfərova**: Tarixi bir hadisədir ki, ilk dəfə mənim evimə gəlirsiniz, cənab Prezident.

Prezident **İlham Əliyev**: Həyət də yaxşıdır, böyükdür.

**Mehriban xanım Əliyeva**: Həyət də böyükdür.

**Sakinlər**: Allah Sizi xoşbəxt eləsin, Sizə cansağlığı versin.

Prezident **İlham Əliyev**: Gedək.

**Mehriban xanım Əliyeva**: Gəlin, keçək baxaq.

* * *

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Səriyyə Cəfərovanın evində yaradılan şəraitlə tanış olublar.

* * *

**Səriyyə Cəfərova**: Buyurun, cənab Prezident, xoş gəlmisiniz. Buyurun, Mehriban xanım, xoş gəlmisiniz.

**Mehriban xanım Əliyeva**: Sağ olun, sizinlə bərabər.

**Səriyyə Cəfərova**: Çox sağ olun. Bax o evdə doğuldum, bu evdə böyüdüm. Bu evdə bizim anamız üç qızı böyütdü, təhsil verdi, ali təhsil verdi. Bu gözəlliyi bizə Siz bəxş etdiniz, Xocalını Siz bizə bəxş etdiniz.

Prezident **İlham Əliyev**: Gözəl tikilib. Mən baxıram, divarları da qalındır, möhkəmdir.

**Səriyyə Cəfərova**: Çox gözəl, hər şey çox yüksək səviyyədə təmir olunub. Mehriban xanım, çox təşəkkür edirəm.

Prezident **İlham Əliyev**: Çox gözəldir bura, mətbəxdir, qaz da var.

**Səriyyə Cəfərova**: İnşallah. Hər şey var, burada evlər yüksək səviyyədə təmir olundu və bu evləri bizə bəxş etdilər.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi

(Əvvəli 2-ci səhifədə)

Prezident **İlham Əliyev**: Sizi təbrik edirik.

**Səriyyə Cəfərova**: Mən bir məsələni də vurğulamaq istəyirəm ki, mən Ermeni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədriyəm. Uzun illərdir Qarabağ həqiqətlərinin dünyada yayılmasında xidmət göstərirəm. Mehriban xanım, nə yaxşı ki, Sizin Qarabağ həqiqətlərinin yayılmasında çox böyük xidmətləriniz oldu. Mən "Xocalıya ədalət!" kampaniyasına görə təşəkkür edirəm ki, biz də azacıq olaraq ona dəstək verdik.

**Mehriban xanım Əliyeva**: Sağ olun, çox sağ olun.

**Səriyyə Cəfərova**: Buna görə də Xocalı soyqırımını dünyaya tanıtdıq. Xocalını dünyaya tanıtdıq.

Prezident **İlham Əliyev**: Bəli, "Xocalıya ədalət!" kampaniyasına qədər, siz də yaxşı bilirsiniz, Xocalı soyqırımı haqqında o qədər də böyük məlumat yox idi, dünyada geniş məlumat yox idi. Çünki Ermənistan çalışırdı ki, hər vəchlə bunu ört-basdır etsin, bizdə də o vaxt belə imkanlar yox idi sözün düzü. Amma "Xocalıya ədalət!" kampaniyası bütün dünyaya səs saldı, geniş vüsət aldı və bunun nəticəsində 13 ölkə Xocalı soyqırımını soyqırımı kimi tanıdı.

**Səriyyə Cəfərova**: Bəli, soyqırımı kimi tanıdı. Bundan sonra da mən inanıram ki, Mehriban xanımın, eyni zamanda, Sizin əməyiniz nəticəsində Xocalı soyqırımı tanınacaq. Siz bizə 8 ay ərzində belə bir gözəllik bəxş etdiniz. İnanın, mən heç vaxt güman etmirdim ki, evimə bax bu formada gələcəyəm. Bunu bizə yaşatdınız, cənab Prezident, təşəkkür edirəm.

Prezident **İlham Əliyev**: Sağ olun. Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta "Ana fəryadı" abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı. Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə ola bilsin ki, indiki Ermənistan rəhbərliyi - o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın.

**Sakinlər**: İnşallah. Allah səsinizi eşitsin, Allah Sizi qorusun. Allah ömrünüzü uzun eləsin.

**Səriyyə Cəfərova**: Bir daha təşəkkür edirəm. Sizə minnətdarıq, cənab Prezident.



Siz gəldiniz, mənim anamın ruhunu şad etdiniz. Mehriban xanım, çox sağ olun. Mənim anamın ruhu necə şad oldu. Bu gün mən özümü bu evdə çox xoşbəxt hiss edirəm. Çünki bu işığı mənə Siz bəxş etdiniz. İşığınız sönməsin, Mehriban xanım.

**Digər qadın sakin**: Cənab Prezident, Mehriban xanım, Sizə minnətdarıq. Soyqırımı qurbanlarının ruhu şaddır. Bu gün xocalılılar sevinirlər ki, bizim gözəl Prezidentimiz qisasımızı yerdə qoymadı. Mehriban xanım, evdə də Sizə dua edirəm. Allah-taala Sizi bir-birinizdən ayırmasın. Allah Sizə cansağlığı versin. İşığınız sönməsin.

Prezident **İlham Əliyev**: Çox sağ olun.

**Mehriban xanım Əliyeva**: Sağ olun.

* * *

Daha sonra dövlətimizin başçısı və birinci xanım sakin Müşfiq Sadıqovun evində yaradılan şəraitlə tanış oldular.

* * *

Prezident **İlham Əliyev**: Sizin eviniz buradadır?

**Müşfiq Sadıqov**: Bəli, atababa evimiz qabaqdadır. Evin o daşı da orada durur. Yəqin ki, ermənilərin də yadından çıxıb, onu sökməyiblər, qalıb. 1976-cı ildə atamın adı-familiyası yazılıb.

Prezident **İlham Əliyev**: 1976-cı ildə?

**Müşfiq Sadıqov**: Bəli, atamın adı da, familiyası da.

Prezident **İlham Əliyev**: Burada qanunsuz məskunlaşmışdılar?

**Müşfiq Sadıqov**: Bəli, bizim evdə məskunlaşmışdılar, cənab Prezident.

Prezident **İlham Əliyev**: Böyük həyətin var, təqribən 20 sot olar.

**Müşfiq Sadıqov**: Dədə-baba yerimiz 20 sotdur.

Prezident **İlham Əliyev**: 20, görürsən də, necə görürəm.

**Müşfiq Sadıqov**: Buyurun, cənab Prezident, birinci qonağım Siz olun.

Prezident **İlham Əliyev**: Sağ olun. Neçə otaqdır?

**Müşfiq Sadıqov**: Dörd otaqdır.

Prezident **İlham Əliyev**: Bərpa olunub?

**Müşfiq Sadıqov**: Bəli, əvvəl də dörd otaq olub, sonra da.

Prezident **İlham Əliyev**: Üç yataq otağı, bir qonaq otağı.

**Müşfiq Sadıqov**: 1976-cı ildə tikilib.

Prezident **İlham Əliyev**: Çox gözəl, təmir yaxşıdır, razısınız?

**Müşfiq Sadıqov**: Çox gözəldir. Hər şey var, su, qaz, işıq.

Prezident **İlham Əliyev**: Bəs istilik?

**Müşfiq Sadıqov**: Kombi sistemimiz var. Çox gözəl təmir ediblər. Allah Sizdən razı olsun.

Prezident **İlham Əliyev**: Burada xoşbəxt yaşayın.

**Müşfiq Sadıqov**: Allah Sizi qorusun.

Prezident **İlham Əliyev**: Sağ olun.

* * *

Prezident **İlham Əliyev**: O nə binasıdır, məktəbdir?

**Sakin**: Bəli, məktəbdir, təzə məktəbdir.

Prezident **İlham Əliyev**: Bu, o vaxt olmayıb?

**Sakin**: Xeyr, bizim köhnə məktəbin binasını onlar konserv zavodu ediblər. Bizim məktəb onillik olub.

Prezident **İlham Əliyev**: Xocalıda bir məktəb olub?

**Sakin**: Xeyr, 3 məktəb olub. Biri onillik, biri səkkizillik, biri də dördillik.

Prezident **İlham Əliyev**: Bu məktəbin neçə şagird yerlikdir?

**Sakin**: 132 şagird, çox gözəl məktəbdir.

Prezident **İlham Əliyev:** Yəni, dərslər sentyabrdan başlayacaq?

**Sakin**: Bəli, direktor da təyin olunub, müəllim heyəti də formalaşıb.

Prezident **İlham Əliyev**: Çox gözəl.

**Sakin**: Hər şey əladır, maşallah.

Prezident **İlham Əliyev**: Təbiət də, maşallah, göz oxşayır.

**Sakin**: Maşallah gününüz olsun.

Prezident **İlham Əliyev**: Siz buna layiqsiniz, bilirsiniz, bəlkə də dünyada sizin qədər əzab-əziyyət çəkən ikinci belə insanlar yoxdur.

**Sakin**: Ən az əhali, çox şəhid verən, Xocalı balaca bir yerdir.

Prezident **İlham Əliyev**: Bəli.

**Sakin**: Cənab Prezident, arabir oraya baxıram, öz-özümə fikirləşirəm ki, həmin gecə mən o dağı necə aşmışam?

Prezident **İlham Əliyev**: Qarqar çayının qırağı ilə?

**Sakin**: Yox, Qarqarın o biri üzünə keçdik.

Prezident **İlham Əliyev**: O dağın ətəyi ilə?

**Sakin**: Biz dağın ətəyindən keçdik, üç günə Ağdamın Şelli kəndinə çatdıq. O beşmərtəbədə qalan insanlardan biri də biz olmuşuq.

Prezident **İlham Əliyev**: Çayı keçdiniz, dağın ətəyi ilə getdiniz.

**Sakin**: Bəli dağın ətəyi ilə, orada Naxçıvanlı kəndi var idi.

Prezident İlham Əliyev: Bəli, bilirəm, orada olmuşam.

**Sakin**: Oranın yanından keçib Ağdamın Şelli kəndinə getdik.

Prezident **İlham Əliyev**: Həmən o faciə günü?

**Sakin**: Orada da pusqu qurmuşdular.

Prezident **İlham Əliyev**: Orada da pusqu qurmuşdular?

**Sakin**: Bəli, onu mən gözümlə gördüm, cənab Prezident, borunu deşib qazı yandırmışdılar. Soyuğa düşmüş camaat da o istiyə qaçdı. İnsanların çoxunu orada əsir götürdülər. Bəli, belə bir pusqu qurmuşdular. İnsan soyuqda haraya qaçar, istiyə. Adamlarımızın çoxunu orada əsir götürdülər.

* * *

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Sənətkarlar məhəlləsinə gəliblər, əvvəlcə "AzeRobot Education" robototexnika tədris mərkəzinin Xocalıdakı filialında yaradılan şəraitlə tanış oldular.

**Mərkəzin nümayəndəsi**: Mərkəzimiz barədə məlumat verim. "AzeRobot Education" artıq üç ilə yaxındır fəaliyyət göstərir. Xocalıdakı doqquzuncu filialımızdır. Proqramlaşdırma, mühəndislik və robototexnika. Beş yaşında uşaqlardan tutmuş şagirdlərə və gənclərə IT sahəsini tədris edirik. On yeddi modulumuz var, yəni, süni intellekt, kibertəhlükəsizlik, proqramlaşma. Uşaqları, şagirdləri hazırlayıb həm yerli, həm də beynəlxalq yarışlara gedirik və Azərbaycanı təmsil edirik.

Prezident **İlham Əliyev**: Yəni, məktəbdən sonra uşaqlar buraya gəlib məşğul olacaqlar?

**Mərkəzin nümayəndəsi**: Bəli, məktəbdən sonra və Xocalıda da artıq bu fəaliyyət başlayıb. Səksənə yaxın müəllimimiz var. Müəllimlərimiz gənclərdir. Universiteti bitirən kimi, hər bölgədən gənclərimiz var və onlar, hər kəs əlbəttə ki, Qarabağa gəlmək istəyirdi. Xocalıdan da olan mentorlarımız var idi. İki ildir onları hazırlayırdıq, həsrətlə bu günü gözləyirdilər.

Prezident **İlham Əliyev**: Xankəndidə Qarabağ Universiteti də sentyabr ayından fəaliyyətə başlayır. Ora ilə də yəqin ki, əlaqəniz olacaq.

**Mərkəzin nümayəndəsi**: Bizim bütün universitetlərlə əlaqəmiz var. Mexatronika, kompüter, IT sahəsində tələbələr hazırlaşırlar. Onları - uşaqları, gəncləri öyrədirik ki, artıq silahla yox, bu dəfə özlərinin yığdığı pilotsuz uçuş aparatları ilə torpaqlarımızı qorusunlar.

Prezident **İlham Əliyev**: Bəli, əlbəttə. İnşallah.

* * *

Prezident İlham Əliyev sonra "Nakhishli" atelyesi ilə tanışlıq olub.

Prezident **İlham Əliyev**: Salam.

**Atelyenin əməkdaşı**: Həmişə Siz gələsiniz. Çox şadam. Bu gün o qədər şadam ki, mən Sizi Xocalıda qarşılayıram. Ən böyük arzularımdan birinə çatmışam.

Prezident **İlham Əliyev**: Həm də iş başında.

**Atelyenin əməkdaşı**: Bəli iş başında, ən sevdiyim iş başında. Buraya gəlmək üçün çox çətinliklərdən keçmişik.

Prezident **İlham Əliyev**: Allah işinizi avand eləsin.

**Atelyenin əməkdaşı**: Çox sağ olun. Çox şadam.

**Mehriban xanım Əliyeva**: Salam. Mən də çox şadam bu günü bir yerdə yaşayırıq. Sizi təbrik edirəm.

**Atelyenin əməkdaşı**: Sizi təbrik edirəm. Buralarda Sizin hamınızın əziyyəti var. Xocalıda şəhid olanların hamısının ruhu bu gün şaddır. Ona görə ki, bizim belə Prezidentimiz var, belə birinci xanımımız var. Mən həqiqətən çox şadam. Ulu Öndər Heydər Əliyevi həddən artıq çox sevirdim. İndi də Sizi çox sevirəm. Onun da ruhu şad olsun.

Prezident **İlham Əliyev**: Sağ olun.

Sonra birgə foto çəkdirilib.

* * *

Prezident **İlham Əliyev**: Sağ olun, Sizi təbrik edirik.

**Atelyenin əməkdaşları**: Çox sağ olun, gələn ayaqlarınız var olsun. Allah Sizi qorusun.

* * *

Dövlətimizin başçısı və birinci xanım "Gilabi Ceramic" emalatxanası ilə tanış oldular.

Prezident **İlham Əliyev**: Siz Bakıdan gəlmisiniz?

**Emalatxananın əməkdaşı**: Bakıdan gəlmişik. Düzdür, başlanğıc olaraq Bakıda başlamışıq.

**Elçin Yusubov**: Bölgələrimizdə də var.

**Emalatxananın əməkdaşı**: Laçında başlamışıq. Bu ailə Laçındandır.

Prezident **İlham Əliyev**: Laçından? Nə yaxşı.

**Emalatxananın əməkdaşı**: Laçına köç etmiş sakinlərdir. Yəni, Laçında artıq fəaliyyətə başlayıblar.

Prezident **İlham Əliyev**: Laçında işləyirlər?

**Elçin Yusubov**: Bəli, işləyirlər.

**Qadın işçi**: Kollektivimiz adından Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Emalatxananın əməkdaşı**: Başlanğıc üçün Bakıdan işçi çağırmadıq.

**Elçin Yusubov**: Özümüzdə var, Qarabağımızda var.

**Emalatxananın əməkdaşı**: Daha yaxından.

Prezident **İlham Əliyev**: Laçın kimi gözəl mənzərəli yerdən gəlmisiniz, daha da gözəl yerə.

**Mehriban xanım Əliyeva**: Salam, xoş gördük.

**Emalatxananın əməkdaşı**: Salam, xoş gəlmisiniz.

Prezident **İlham Əliyev**: Laçında işlər necə idi, yaxşı idi?

**Emalatxananın əməkdaşı**: Cənnəti daha da cənnət etmisiniz.

(Ardı 4-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi

(Əvvəli 3-cü səhifədə)

Prezident **İlham Əliyev**: Laçın onsuz da cənnətdir, mən demişəm, Azərbaycanın, yəqin ki, ən gözəl rayonlarından biridir, özü də indi abadlıq işləri aparılandan sonra. Mən demişdim ki, biz Qarabağı cənnətə çevirəcəyik. Yavaş-yavaş çeviririk. Xocalı da elə olacaq.

**Emalatxananın əməkdaşları**: Çox sağ olun. Allah Sizə cansağlığı versin.

Prezident **İlham Əliyev**: Sizi təbrik edirik. Sağ olun.

**Mehriban xanım Əliyeva**: Təbrik edirəm.

**Emalatxananın əməkdaşları**: Sağ olun.

* * *

Daha sonra "Sariban" peşə inkişaf mərkəzinin filialı ilə tanışlıq olub.

**Mərkəzin əməkdaşı**: Xocalımıza xoş gəlmisiniz.

Prezident **İlham Əliyev**: Sağ olun. Salaməleyküm.

**Mərkəzin əməkdaşı**: Xoş gördük, cənab Prezident. Sizi görməyə çox şadıq.

Prezident **İlham Əliyev**: Siz hansı işlərlə məşğul olursunuz?

**Mərkəzin əməkdaşı**: Peşə inkişaf mərkəzi olaraq Xocalı sakinlərinə mədəniyyətimizlə bağlı sənət sahələrini öyrədəcəyik. Bundan əlavə, Xocalıda məskunlaşacaq sakinlərə müxtəlif peşələr öyrədəcəyik, master-klaslar keçiriləcək.

Prezident **İlham Əliyev**: Yəni, rəssamlıq, yoxsa?

**Mərkəzin əməkdaşı**: Rəssamlıq da daxildir, təbii-dekorativ sənət növləri də. Şamın hazırlanması, vitraj sənəti, yəni, buraya xalq yaradıcılığı da aiddir.

Prezident **İlham Əliyev**: Yəni, bura təlim mərkəzi olacaq?

**Mərkəzin əməkdaşı**: Təlim mərkəzi olacaq, eyni zamanda, mentorluq proqramı da düşünmüşük, Xocalı sakinləri öyrəndikdən sonra digərlərinə də öyrətsinlər.

Prezident **İlham Əliyev**: Çox yaxşı, sizi təbrik edirəm. Sağ olun.

**Mehriban xanım Əliyeva**: Sizi təbrik edirəm.

**Mərkəzin əməkdaşı**: Mehriban xanım, Sizi görməyə çox şad olduq. Sağ olun, bayramınız mübarək.

* * *

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərinin Baş planı ilə də tanış olublar.

* * *

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri **Anar Quliyev**: Salam, cənab Prezident.

Prezident **İlham Əliyev**: Gedək, bizə göstərsinlər Xocalının gələcəyi necə olacaq?

**Sakin**: İnşallah, Xocalının gələcəyi bundan da gözəl olacaq.

**Anar Quliyev**: Cənab Prezident, Xocalının Baş planını hazırlayarkən biz, ilk növbədə, onun regiondakı mövqeyini nəzərə aldıq. Çox strateji mövqeyə malikdir. Bu, beynəlxalq hava limanıdır. Bu, Xocalı şəhəridir. Bu isə Xocalı rayonunun sərhədləridir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu. Bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir.

Eyni zamanda, strateji əhəmiyyətə malik Ağdam, Xankəndi şəhərlərinin, bizim mədəniyyət paytaxtımız Şuşa şəhərinin çox yaxında yerləşdiyini də nəzərə alaraq, regionla inteqrasiyasına xüsusi önəm verilib. Bu tərəfdə Xocalı şəhərinin tünd qəhvəyi rənglə əvvəl mövcud olmuş sərhədləri göstərilib, 610 hektar təşkil edirdi. Hazırda isə biz 1300 hektara yaxın ərazini nəzərdən keçiririk.

Prezident **İlham Əliyev**: Burada nə idi o vaxt? İşğala qədər ora boş torpaq idi?

**Anar Quliyev**: Boş torpaqdır, bəli. Bura kiçik bir yaşayış məntəqəsi idi. 9100 nəfər əhalisi var idi.

Prezident **İlham Əliyev**: Qeydiyyatda 9100?

**Anar Quliyev**: Bəli, qeydiyyatda 9100. Biz ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırırıq. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır.

İcazənizlə, növbəti planşetdəkilər barədə məlumat verim. Burada gələcəyə baxış hədəflərini əks etdirmişik. Təbii ki, Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər. Təbii ki, bu gün artıq bir neçəsi Sizə də təqdim olundu. Bərpa olunan evlər də vacib elementlərdən biridir.

Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq, mobilliyi artıracaq. Bu, həmçinin şəhərdə iqtisadiyyatın, sahibkarlığın inkişafına da xüsusi təkan verəcək. Bütün bunlar dinamik inkişafı təmin edən iqtisadi şaxələndirməyə imkan verəcək. Burada çox zəngin kənd təsərrüfatı torpaqları olduğunu nəzərə alaraq, şəhər daxilində kiçik aqropark yaradılması təklif olunur. Müxtəlif tikinti materialları istehsalı, yüngül sənaye, qida sənayesi obyektləri yaradılacaq, nəqliyyat və logistika ənənəvi əsas sektor olaraq inkişaf etdiriləcək.

Prezident **İlham Əliyev**: Yəni, müasir şəhər olacaq.

**Anar Quliyev**: Bəli, müasir şəhər.

Prezident **İlham Əliyev**: Mən dəmir yolu ilə də bağlı göstəriş verdim. Ağdam-Xankəndi dəmir yolunun bərpası, yəni yenidən qurulması layihəsi hazırlanır. Xankəndi dəmir yolu vağzalının layihəsi mənə təqdim edilmişdir. Yəqin ki, o vağzal bir az fərqli yerdə yerləşəcək, daha uyğun. Ona görə də dəmir yolu ilə buradan - Xankəndidən, Xocalıdan istənilən istiqamətə getmək mümkün olacaq. Həm Bakıya, həm qərb istiqamətinə, Gəncəyə. Ona görə də gediş-gəliş rahat olacaq. İndi Ağdam, Əsgəran, Xankəndi yolunu da genişləndiririk. Siz yaxşı bilirsiniz ki, o yol dar idi.

**Sakin**: Çox dar idi, cənab Prezident.

Prezident **İlham Əliyev**: İndi dördzolaqlı yol olacaq. Yəqin ki, Ağdam-Bərdə yolunu görmüsünüz. Necə də gözəl olub. Bu tərəfdən də Şuşaya cəmi 20 dəqiqəlik yoldur, oradan Laçına. Laçın-Şuşa yolunda bir neçə tunel, körpü inşa edilir. Yəqin ki, siz o yol ilə çox gedib-gəlmisiniz. Hamısı belə serpantin idi. Bu serpantinləri də düzəldirik, körpülər, tunellər. Şuşadan Laçına maksimum 25 dəqiqəyə getmək mümkün olacaq. Deməli, buradan bütün yaxın qonşu rayonlara da gediş-gəliş çox rahat olacaq. Xankəndidə Qarabağ Universiteti, uşaqlarınız orada oxuyacaqlar. Şuşa da ki, indi dünyanın ən gözəl şəhəridir və olacaq.

**Sakin**: Bir də, cənab Prezident, mümkünsə Xocalıda Soyqırımı muzeyi.

Prezident **İlham Əliyev**: Mən fevralın 26-da təməlini qoymuşam.

**Sakin**: Muzeyin?

Prezident **İlham Əliyev**: Bəli.

**Sakin**: Gözəl, çox sağ olun. O, vacibdir. Çünki o, bizim Xocalı camaatı üçün çox vacibdir, çünki burada çox insan şəhid olub.

Prezident **İlham Əliyev**: Fevralın 26-da mən burada idim. Özüm o layihənin təməlini qoydum. Soyqırımı Memorial Kompleksinin təməli qoyulub. Mən artıq bunu dedim bacımıza ki, Bakıda nəzərdə tutulurdu. Ancaq mən onun Bakıda inşa olunmasına hər dəfə tərəddüd edirdim. Deyirdim ki, yox, gün gələcək, Xocalıda bunu edəcəyik. Layihə çoxdan hazırdır. Mehriban xanım onu çoxdan təsdiqləyib. Heydər Əliyev Fondu tərəfindən hazırlanıb və Heydər Əliyev Fondu tərəfindən inşa edilir.

**Sakin**: Çox sağ olun.

Prezident **İlham Əliyev**: Üç ay bundan əvvəl təməli qoyuldu. Yer də elə seçildi ki, yoldan görünsün, təpəcikdə. Yəqin ki, bir ilə, il yarıma hazır olacaq.

**Sakin**: İnşallah.

Prezident İlham Əliyev: Burada məşğulluq, ticarət, sənaye.

**Anar Quliyev**: Bəli, nəqliyyat, logistika, kənd təsərrüfatı, ticarət və sənaye - əsas iqtisadiyyatın dayaqlarını təmin edəcək bu region üçün.

Prezident **İlham Əliyev**: Yaşıl enerji.

**Anar Quliyev**: Mütləq, bəli. Cənab Prezident, bir az öncə qeyd etdiyiniz kimi, çox yaxındır qonşu yaşayış məntəqələrinə, Xocalını Əsgəranla cəmi 5 kilometr, Ağdam şəhərindən isə cəmi 10 kilometr ayırır. Xankəndiyə 11 kilometr, Şuşaya isə 7 kilometrdir. Bununla artıq Xocalının gələcəyi özü təbii olaraq şərtləndirilir. Bu, regional bir hala çevriləcək, tranzit nöqtəsinə. Bu, iqtisadiyyatın, iqtisadi fəaliyyətin həm cəmləşdiyi, həm də kənara inkişaf edəcəyi bir məkandır.

Prezident **İlham Əliyev**: Burada zonalara bölünür.

**Anar Quliyev**: Bəli, artıq konseptual sxem Baş plana keçməmişdən əvvəl şəhərin tarixi mərkəzi. Biz hazırda bu hissədəyik. Şəhərin yeni mərkəzi salınacaq. Aşağıda hava limanı və onun ətrafında logistika, sənaye zonası kimi inkişaf etdiriləcək. Hava limanının üstündə arxeoloji park mövcuddur. Artıq o, qorunacaq, inkişaf etdiriləcək, konservasiya işləri aparılır.

Prezident **İlham Əliyev**: Qarqar çayının ətrafı da yəqin daha da abadlaşacaq, gözəl bir gəzinti məkanı olacaq. Xankəndidən bu tərəfə gözəl bir istirahət zonası olmalıdır.

**Anar Quliyev**: Həm Qarqar çayının, həm də Qarqar çayına gələn Badara çayının ətrafında bulvar yaradılması nəzərdə tutulur. İnkişaf zonası, həmin Memorial Kompleks artıq şəhərin bu hissəsindədir. Növbəti slayda, planşetdə Baş plan daha təfsilatlıdır.

Prezident **İlham Əliyev**: Memorial Kompleks haradadır?

**Anar Quliyev**: Burada, bu ərazidə. Biz hazırda buradayıq. Burada məktəb artıq bərpa olunub, yaxınlığındadır. Bu, faktiki tarixi mərkəzdir və bu hissədə isə şəhərin yeni mərkəzi salınacaq. İnzibati zona, şəhər parkı, mədəniyyət mərkəzi, çoxfunksiyalı zonalar, hava limanı və ətrafında sənaye-logistika zonası. Bu hissədə aqroparkın inkişaf etdirilməsi, müvafiq olaraq texniki peşə məktəbinin layihələndirilməsi və tikintisi planlaşdırılır. Bu, məktəb, bu da yaşayış məntəqəsidir. Kənd təsərrüfatı torpaqlarından sonra bir az məsafədə yerləşdiyi üçün orada da məktəb nəzərdə tutulub. Hər altmərkəzdə məktəblər və uşaq bağçaları olacaq.

Biz təxminən 200 hektar təşkil edən həmin bu mərkəzi hissənin artıq müfəssəl planını hazırlamışıq. Yenə biz durduğumuz məkan buradır. Göründüyü kimi, bu hissədə ictimai, işgüzar zona - yəni, çoxfunksiyalı mədəni mərkəz, inzibati binalar və çox böyük şəhər parkı olacaq. Ümumiyyətlə, bütün şəhər boyu yaşıl zonalar bir-biri ilə əlaqələndiriləcək və şəhər çox yaşıl olacaq. Adambaşına 140 kvadratmetr yaşıllıq nəzərdə tutulur.

Prezident **İlham Əliyev**: Bu da bunun vizual görüntüsü, memarlığıdır.

**Anar Quliyev**: Memarlıq həlləri ilə bağlı yanaşmalardır. İctimai binalarla bağlı, müvafiq evlər, yaşayış binaları. Bəli, landşaft memarlığına xüsusi diqqət yetiriləcək. Nəqliyyat və mühəndis qurğuları da şəhərin simasını təşkil edir.

Prezident **İlham Əliyev**: Avtovağzal.

**Anar Quliyev**: Avtovağzal, bəli, avtonəqliyyat qovşağı, dəmir yolu stansiyası - hamısı bir məkanda yerləşəcək.

Prezident **İlham Əliyev**: Bir də, əlbəttə ki, təbiətin qorunması. Əsas odur ki, Xocalı gözəl bir park şəhəri olsun.

**Anar Quliyev**: Bunlar istinad olunan şəkillərdir. Burada isə konkret artıq ilkin təkliflər hazırlanıb. Məsələn, bu hissədə yaşayış binalarının görüntüləridir. Müfəssəl planda da görünür, həmin yaşayış binaları yerləşəcək zona buradır. Çayətrafı bulvarın şəkli, yəni, bu ərazidən söhbət gedir. Şəhər parkı, təxminən bu hissədən söhbət gedir. Həmin şəhər parkının olduğu hissədə çoxfunksiyalı mədəniyyət mərkəzi...

Prezident **İlham Əliyev**: Tədbirlərin keçirilməsi üçün.

**Anar Quliyev**: Bəli, müxtəlif tədbirlər keçiriləcək. İlkin fasad görüntüləri artıq hazırlanıb. Eyni zamanda, uşaq bağçası və tam orta məktəbin birlikdə göründüyü şəkil.

Prezident **İlham Əliyev**: Uşaq bağçası yoxdur?

**Anar Quliyev**: Var.

Prezident **İlham Əliyev**: Məktəbin içində?

**Anar Quliyev**: Xeyr, ayrı, 40 yerlik. Amma bu layihədəki yenidir, şəhərin bu hissəsində layihələndiriləcək.

Prezident **İlham Əliyev**: Yeni məktəb, əlbəttə, lazım olacaq, yəni, müəyyən müddətdən sonra.

**Anar Quliyev**: Dəmir yolu stansiyasının ilkin fasad görünüşü hazırlanıb. İnzibati binalara bağlı fasad görüntüləri ilkin olaraq bu şəkildə təklif olunur.

Prezident **İlham Əliyev**: Bu da inzibati mərkəz.

**Anar Quliyev**: Bəli, üç binadan ibarət inzibati mərkəzdir - bütün dövlət qurumlarının yerləşəcəyi inzibati mərkəz.

Prezident **İlham Əliyev**: Necə, bəyənirsiniz Xocalını gələcək üçün?

**Sakinlər**: Çox sağ olun. Allah Sizi var eləsin. Yüksək səviyyədədir.

Prezident **İlham Əliyev**: Yağışda bir az gəzişək.

**Sakin**: Yağış da aydınlıqdır, nurdur.

Prezident **İlham Əliyev**: Sizi bir daha təbrik edirəm.

**Sakinlər**: Çox sağ olun, cənab Prezident, var olun. Sağ-salamat gedin.

Prezident **İlham Əliyev**: Burada xoşbəxt yaşayın.

**Sakinlər**: Sağ olun, minnətdarıq. Siz bizim torpaqlarımızı qaytarmısınız.

Prezident **İlham Əliyev**: Xoşbəxt yaşayın. Siz buna layiqsiniz.

**Sakinlər**: Allah Sizi qorusun.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Sakin**: Bir daha təşəkkür edirəm, gələn ayaqlarınız var olsun. Cənab Prezident, sağ olun, bizə ən böyük xoşbəxtliyi bəxş etmisiniz. Allah Sizi qorusun, ailənizi qorusun. Dəmir yumruğunuz həmişə var olsun.

Prezident **İlham Əliyev**: Həmişə yerindədir. Allah lazım etməsin, amma lazım olarsa, yerindədir.

**Sakin**: Cənab Prezident, lazım olan yerdə lazım oldu.

**Sakinlər**: Allah Sizə güc-qüvvət versin. Allah Sizi var eləsin. Sağ olun. Sağsalamat gedin.

Prezident **İlham Əliyev**: Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikasının müdafiə nazirinin 28 May - Dövlət Müstəqilliyi Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi dövlətçilik tariximizin ən şanlı səhifələrindən sayılan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 106-cı ildönümü 28 May - Dövlət Müstəqilliyi Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, çətin, eyni zamanda, şərəfli və müqəddəs xidmətinizdə uğurlar arzulayıram. Müasir Azərbaycanın yenidən müstəqilliyinə qovuşması, onu əbədi və dönməz etməsi, ölkənin tərəqqisi, ordu quruculuğunda əsaslı dönüşün yaradılması, dünya birliyində özünə layiqli yer tutması, mövqelərini möhkəmləndirməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Respublikamızın müdafiə qüdrətinin artırılması istiqamətində qazanılan böyük nailiyyətlər, eyni zamanda, orduda aparılan genişmiqyaslı islahatlar, sosial infrastrukturun gücləndirilməsi, hərbi qulluqçuların xidməti şəraitinin yaxşılaşdırılması, keçirilən təlimlər, düşmənin təxribatlarına qarşı aparılan uğurlu irimiqyaslı əks-hücum əməliyyatları şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirərək, 2020-ci il Azərbaycan Ordusunun tarixinə Zəfər ili kimi yazıldı.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq qələbə və həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində düşmən işğalında qalmış tarixi torpaqlarımız azad olundu. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi. Ötən il Xankəndi şəhərində keçirilən 8 Noyabr - Zəfər Gününün üçüncü ildönümünə həsr olunmuş Zəfər Paradı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun yenilməzliyini bir daha nümayiş etdirdi.

Dövlət müstəqilliyimizin əsas atributlarından biri sayılan üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı işğaldan azad edilmiş ərazilərdə rəşadətli Azərbaycan Ordusu öz mövqelərini daha da möhkəmləndirməklə, bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, Böyük Qayıdışa layiqli töhfələrini verməkdədir. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə daim sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsini hər zaman olduğu kimi 28 May Dövlət Müstəqilliyi Günü ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Şəhidlərimizin ailə üzvləri və sağlamlığını itirən döyüşçülərimiz, müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində mühüm addımlar atılır. Şəhid hərbi qulluqçularımızın valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha hər birinizi 28 May - Dövlət Müstəqilliyi Günü münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə uğurlar arzulayıram.

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov**

## Türkiyənin Milli Müdafiə Nazirliyi: "Bir millət, iki dövlət" anlayışı ilə hər zaman bir olmağa davam edəcəyik




Azərbaycan türkü qardaşlarımızın 28 May - Müstəqillik Günü mübarək. "Bir millət, iki dövlət" anlayışı ilə hər zaman bir və bərabər olmağa davam edəcəyik.

AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyənin Milli Müdafiə Nazirliyinin təbrik mesajında yer alıb.

Nazirlik rəsmi "X" hesabında etdiyi paylaşımda "İki bədəndə bir can: Türkiyə-Azərbaycan!" sözlərini də yazıb.

# General-mayor Dadaş Rzayev son mənzilə yola salınıb







*Mayın 28-də vəfat edən ehtiyatda olan general-mayor Dadaş Rzayev İkinci Şəhidlər xiyabanında son mənzilə yola salınıb.*

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və Müdafiə Nazirliyinin digər rəhbər heyəti, mərhumun ailə üzvləri, yaxınları, döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Ehtiram ənənələrinə uyğun olaraq hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, D.Rzayev son mənzilə yola salınıb, məzarı üzərinə əklil və gül dəstələri qoyulub, ruhuna dualar oxunub. Tabut üzərindəki üçrəngli Azərbaycan bayrağı əbədi



xatirə kimi saxlanılması üçün mərhumun ailəsinə təqdim edilib.

Mərasimdə D.Rzayevin həyat və xidmət yolu haqqında danışılıb. Qeyd olunub ki, o vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə dəfələrlə müxtəlif orden və medallara layiq görülüb.

Vurğulanıb ki, general-mayor D.Rzayevin xatirəsi Azərbaycan Ordusunun şəxsi heyətinin və onu tanıyanların qəlbində daim yaşayacaq.



# Müdafiə Nazirliyinin bir qrup nümayəndə heyəti Qazaxıstanda səfərdə olub

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq, Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin bir qrup hərbi qulluqçusu bu ölkədə səfərdə olub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan nümayəndə heyəti Hərbi Polis Mütəxəssislərinin Hazırlıq Mərkəzində hərbi polisin gündəlik fəaliyyəti, kinoloji xidmətin təşkili, maddi-texniki təchizat və təlim proqramı, eləcə də silahlanmada olan hərbi texnika ilə tanış olub, bölmələrin nümayiş məşğələsini izləyib.

Azərbaycan və Qazaxıstan respublikalarının hərbi polis nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Müdafiə Nazirliyinin nümayəndə heyəti səfər çərçivəsində, həmçinin Qazaxıstan Respublikasının Dövlət Hərb Tarixi Muzeyi və Milli Muzeyində, eləcə də digər görməli yerlərində olub, tarixi abidələri ziyarət ediblər.



# Müstəqillik Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib






28 May - Müstəqillik Günü münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.

Şəxsi heyət, ictimaiyyət və Azərbaycan Respublikasının xarici ölkələrdə akkreditə olunmuş hərbi attaşelik aparatlarının nümayəndələrinin iştirak etdiyi tədbirlərdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə hərbi qulluqçular üçün ictimai-siyasi hazırlıq dərsləri, "dəyirmi masa"lar, konfranslar təşkil olunub, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və müdafiə nazirinin 28 May - Müstəqillik Günü münasibətilə təbrikləri şəxsi heyətə çatdırılıb.

Çıxış edənlər 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini bəyan edən "İstiqlal Bəyannaməsi"nin qəbul edilməsindən, Müsəlman Şərqində ilk parlament respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından danışıblar.

Qeyd olunub ki, müasir Azərbaycan Ulu Öndərin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində dövlət müstəqilliyini möhkəmləndirib, ölkəmizin beynəlxalq mövqeyi güclənib. Bu gün onun müdrik siyasətini uğurla davam etdirən Ali Baş Komandan cənab İlham Əliyevin sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa edilərək bütün sahələrdə inkişaf etdiyi xüsusi vurğulanıb.

Müstəqillik Günü münasibətilə, həmçinin şəxsi heyət üçün ekskursiyalar, kitab, foto və rəsm sərgiləri təşkil edilib, sənədli və bədii filmlər nümayiş olunub, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin dahi şəxsiyyətlərinin ev muzeyləri, abidə və digər tarixi yerlər, şəhidlərimizin məzarları ziyarət edilib.

Silsilə tədbirlərdə "Əsgərə məktub" layihəsi çərçivəsində vətəndaşlar tərəfindən yazılmış məktublar Vətən qoruyucularına çatdırılıb. Hərbi qulluqçular onlara ünvanlanmış məktubları böyük maraqla oxuyublar.

* * *

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, mərkəzin şəxsi heyəti və kursantlar iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan polkovnik Müslüm Nəsibov bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək olan müddətdə cəmi 23 ay mövcud olmuşdur. "Bu dövlətin yaradıcıları olan Azərbaycanın vətənpərvər oğulları qısa müddətdə milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdilər, 1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycan "İstiqlal Bəyannaməsi"ni elan etdilər və respublikamızın müstəqilliyinin əsasını qoydular. 23 aylıq fəaliyyəti dövründə demokratik respublika xalqımızın milli-mənlik şüurunu özünə qaytardı, onun öz müqəddaratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdi. Dövlətçilik göstəricilərinə və prinsiplərinə görə müsəlman Şərqində və türk dünyasında ilk demokratik respublika olan Azərbaycan artıq özünün parlamenti, hökuməti, ordusu və pul vahidi ilə müstəqil, suveren bir dövlət idi. 1991-ci ildə Azərbaycan xalqı müstəqilliyini bərpa etdi, cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi "Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəylinin və Əhməd Cavadın yaratdıqları dövlət himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa etdi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir. Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk Xalq Cümhuriyyətinin varisidir. Bütün dövlət onun varisidir, bütün respublika, onun varisidir, bütün xalq onun varisidir". 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və uzaqgörənliklə yerinə yetirməyə başladı. Bu isə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması demək idi. Əbədiyaşar Komandanın apardığı siyasət nəticəsində dövlətçiliyin təməl prinsipləri yaradılaraq möhkəmləndirildi, müstəqil Azərbaycan dünya birliyinin tam hüquqlu üzvünə çevrildi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev xalqımızın tarixi keçmişinin öyrənilməsi kimi məsələləri daim diqqət mərkəzində saxlayır. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Milli Məclisi 1918-ci il mayın 28-də "İstiqlal Bəyannaməsi" ilə Azərbaycan Respublikası Dövlət müstəqilliyinin elan olunmasını nəzərə alaraq, 2021-ci il oktyabrın 15-də mayın 28-nin Müstəqillik Günü elan olunması haqqında qanun qəbul etmişdir. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 106 il keçir. Bu gün dövlət başçısının rəhbərliyi altında Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq gündən-günə inkişaf edir və qüdrətlənir".

Çıxışlardan sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdilər.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində 28 May - Müstəqillik Günü ilə bağlı tədbir keçirildi. Mərkəzin həyətində açıq səma altında düzənlənən tədbirdə "N" hərbi hissəsinin əsgərləri, çavuşları, gizir və zabitləri, həmçinin ictimaiyyətin nümayəndələri iştirak etdilər. Tədbirin aparıcısı baş leytenant Günel Dadaşova 28 May - Müstəqillik Gününün ölkəmizdə hər il təntənə ilə qeyd olunduğunu bildirdi.

Tədbirdə çıxış edən Mərkəzin əməkdaşı Gülxar Məmmədova dedi ki, müsəlman şərqində ilk dəfə olaraq 1918-ci ildə Azərbaycanda Demokratik Respublika elan olunub. "Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əhməd bəy Ağaoğlu və başqaları Azərbaycanı dünyəvi dövlət elan edərək, demokratik dəyərlərə köklənmiş bir quruluş formalaşdırmağı qarşılarına məqsəd qoyublar. Lakin Azərbaycanda fəaliyyət göstərən erməni-bolşevik qüvvələri müstəqilliyimizin əleyhinə daim iş aparır, yenicə elan edilmiş cümhuriyyətə qarşı xalq arasında inamsızlıq toxumu səpdi. Bolşevik-daşnak birliyi son anda Azərbaycan Demokratik Cümhuriyyətinin süqutuna nail ola bildi. Cəmi 23 ay mövcud olan Azərbaycan Demokratik Respublikası 1920-ci ildə bolşevik qırmızı ordusu tərəfindən işğal olundu. Və bu işğal 70 il davam etdi. Buna baxmayaraq, xalqımızın vətənpərvər oğulları bu illər ərzində zaman-zaman müstəqillik uğrunda sovet imperiyasına qarşı mübarizə aparıblar.

İkinci dəfə elan edilən müstəqilliyin ilk illərində Azərbaycanda siyasi hakimiyyətdə böhran hökm sürməyə başladı. O zaman xalqın yeganə ümid yeri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev idi. Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev qısa müddətdə ölkədə sabitliyi bərpa etdi, xalqı vətəndaş müharibəsindən qurtardı. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ölkəmizdə sosial-siyasi inkişafı təmin etdi. Azərbaycanın əzəli torpaqları düşmən işğalından azad edilərək ərazi bütövlüyümüz bərpa edildi".

Daha sonra tədbir iştirakçıları Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəqs qrupunun təqdim etdiyi milli rəqslərə tamaşa etdi, solistlərin ifasında vətənpərvərlik mahnıları dinlədilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



Hərb Tarixi Muzeyində 28 May - Müstəqillik Gününə həsr olunmuş "Zəfərlə taclandırılmış Müstəqillik!" adlı dəyirmi masa keçirildi.

Dəyirmi masada Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu, Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun alimləri, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

İştirakçılara 28 May - Müstəqillik Gününə həsr olunmuş "Müstəqilliyin 9 şəkli!" adlı sənədli filmi izlədilər.

Sonra Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "Azərbaycan Xalq Cümhuriyyəti ordusu Azərbaycan dövlətçiliyinin keşiyində" adlı məruzə ilə çıxış etdi.

Muzey rəisi qeyd etdi ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik tarixində özünəməxsus yeri və önəmi zaman keçdikcə daha aydın görünür və yüksək dəyərləndirilir. "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev AXC-nin yaranmasını çoxminillik dövlətçilik ənənələrimizin ölməzliyinin təzahürü və xalqımızın müstəqillik arzularının gerçəkləşməsinin təntənəsi kimi qiymətləndirir, müasir müstəqil Azərbaycan dövlətinin onun hüquqi-siyasi varisi olduğunu vurğulayırdı. Cəmi 23 ay yaşamasına baxmayaraq, Cümhuriyyət dövründə müstəqil dövlətin bütün atributları, o cümlədən milli ordumuz formalaşdırıldı. 1918-ci il iyunun 26-da Əlahiddə Azərbaycan Korpusu yaradıldı, bununla da milli ordumuzun təməli qoyuldu".

İstefada olan polkovnik məruzəsində Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin təsis olunmasından, Qafqaz İslam Ordusunun qüvvələri tərəfindən 1918-ci ilin 15 sentyabr tarixində Bakının bolşevik-erməni birləşmələrindən azad edilməsindən, milli ordunun Qarabağda Ermənistan hərbi qüvvələrinin ölkəmizə qarşı təcavüzünün qarşısının qəhrəmanlıqla alınmasından, 1920-ci il aprelin 28-də bolşevik işğalından sonra müstəqilliyimizin ən mühüm atributu sayılan milli ordu hissələrinin dağıdılmasından geniş bəhs etdi.

Muzeyin rəisi məruzəsinin sonunda xüsusi olaraq vurğuladı ki, Cümhuriyyətin ordu quruculuğu ənənəsi və təcrübəsi 70 il sonra öz dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycanın güclü milli ordusunun yaradılması üçün son dərəcə gərəkli oldu. "Əsası Cümhuriyyət dövründə qoyulmuş Azərbaycan Ordusu hazırda regionun ən güclü hərbi qüvvəsi, dünyanın isə 50 qüdrətli ordusu sırasındadır. Qürurla deyə bilərik ki, həmin ordu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımızın erməni silahlı birləşmələrindən azad olunmasında böyük hünərlə iştirak edərək, adını şanlı hərb tariximizə qızıl hərflərlə yazdı".

Daha sonra dəyirmi masada AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyəti tarixi" şöbəsinin müdiri, tarix elmləri doktoru Kamran İsmayılovun "Azərbaycan dövlətçiliyinin Azərbaycan Xalq Cümhuriyyəti səhifəsi", həmin institutun "Şimali Azərbaycan XIX-XX əsrlər tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, professor Hacı Həsənovun "XX əsrin əvvəllərində Azərbaycan dövlətçilik tarixinin təntənəsi", institutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Zəfər Kərimovun "Azərbaycan mətbuatı Azərbaycan dövlətçiliyinin xidmətində (XX əsrin əvvəlləri)" adlı məruzələri dinlənildi.

Sonda dəyirmi masa iştirakçılarına hərbi vətənpərvərlik musiqilərindən ibarət konsert proqramı təqdim olundu.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# ƏÜO-da növbəti gizir və MAHHXHQ kurslarının buraxılış mərasimi keçirilib

*Əlahiddə Ümumqoşun Orduda növbəti gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarının uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Polkovnik Mahmud Əmirov kurslar zamanı keçirilən məşğələlərdən danışıb və məzunları kursları uğurla başa vurmaları münasibətilə təbrik edib.

Məzunlar adından çıxış edən Elnur Ağamalıyev kursları əvvəl bitirən məzunlar kimi şərəflə xidmət edəcəklərinə, növbəti kurslarda iştirak edəcək gənclərə nümunə olacaqlarına söz verib.

Məzunları təbrik edən Əlahiddə Ümumqoşun Ordu Komandanın müavini general-mayor Rəhim Cəfərov bildirib ki, bu gün dünyanın güclü orduları sırasında olan Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə yüksək nailiyyətlər qazanıb, ordumuz müasir silah sistemləri ilə təchiz edilib, hərbi qulluqçuların məişət şəraiti yaxşılaşdırılıb.

Qeyd olunub ki, ölkəmizdə ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsi, maddi-texniki bazanın inkişaf etdirilməsi, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılması prioritet vəzifələr kimi müəyyənləşdirilib. Bu da hərbi qüdrətimizin daha da artmasına şərait yaradacaq. Əminliklə deyə bilərik ki, Əlahiddə Ümumqoşun Orduda da bu istiqamətdə tədbirlər həyata keçiriləcək, bundan sonra da muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi və müdafiə potensialının daha da gücləndirilməsi üçün lazımi addımlar atılacaq.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birinciləri xatirə lövhələrinə buraxılış emblemlərini vurduqdan sonra tribuna önündən təntənəli keçid olub. Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan və Serbiyanın hərbi-mülki əməkdaşlıq üzrə ekspertlərinin görüşü keçirilib




Mayın 27-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Azərbaycan və Serbiya Müdafiə nazirliklərinin hərbi-mülki əməkdaşlıq (CIMIC) üzrə ekspertlərinin görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlara Azərbaycan Ordusunda hərbi-mülki əməkdaşlıq istiqamətində həyata keçirilən tədbirlər, həmçinin bu sahədə qazanılan beynəlxalq təcrübə barədə ətraflı məlumat verilib.

Serbiyalı nümayəndələr öz növbələrində CIMIC proqramının əhəmiyyətini qeyd edib və bu istiqamətdə görülən işlərdən danışıblar.

Sonda təqdim olunan brifinqlər ətrafında müzakirələr aparılıb və qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.



# Müstəqillik Günü ərəfəsində "N" hərbi hissəsində "Açıq qapı" günü keçirildi





Şanlı tariximizə qızıl hərflərlə yazılmış 28 May - Müstəqillik Günü xalqımız üçün müqəddəs gün olmaqla yanaşı, hər bir Azərbaycan vətəndaşının qürur günüdür. XIX əsrin əvvəllərində itirilmiş dövlət müstəqilliyini bərpa etmək arzusu ilə yaşayan Azərbaycan xalqı yüz il sonra tarixi fürsətdən məharətlə yararlandı. Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik əzmini nümayiş etdirdi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası "İstiqlal Bəyannaməsi"ni imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir.

28 May - Müstəqillik Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsinin yaranmasının 32-ci ildönümü münasibətilə "Açıq qapı" günü keçirildi. Keçirilən tədbirin əsas məqsədi iştirakçılarda, həmçinin xidmət edən hərbi qulluqçularda bayram əhval-ruhiyyəsi yaratmaq və hərbi hissənin 32-ci il dönümünü qeyd etmək idi.

Əvvəlcə hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri düzüldü, onların ruhuna dərin hörmət və ehtiram nümayiş etdirildi.

Müdafiə Nazirliyi və ictimaiyyətin nümayəndələri, media mənsubları, şəhid ailələri və hərbi qulluqçuların yaxınlarının iştirak etdiyi tədbirdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.

Müdafiə nazirinin təbriki hərbi hissənin şəxsi heyətinə çatdırıldı. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun gündən-günə qüdrətlənməsi, döyüş qabiliyyətinin artması qeyd edilərək, ordumuzun daima ölkəmizin ərazi bütövlüyünü qorumağa qadir olduğu vurğulandı.

İştirakçılara hərbi hissənin yaranması və döyüş yolu barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, hərbi hissə yarandığı gündən torpaqlarımızın ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında daim rəşadətlə vuruşub. Vətənimizin müdafiəsi zamanı qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəldiyinə görə hərbi hissənin bir çox hərbi qulluqçusu müxtəlif orden və medallarla təltif olunub.

Sonra qonaqlar dəniz xüsusi təyinatlılarının nümunəvi çıxışlarını izlədilər.

Hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

Rəsmi hissə başa çatdıqdan sonra hərbi hissənin komandanlığının iştirakı ilə hərbçilər və qonaqlar üçün bayram süfrəsi təşkil edildi.



**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

### Milli Qəhrəmanlarımız

# Milli Qəhrəmanın xatirəsi yad olundu

*Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Milli Qəhrəmanların anım mərasimlərinin keçirilməsi ənənə halını almışdır. Vətənə misilsiz xidmətlər göstərənlər böyük hörmət və ehtiramla yad olunurlar.*




Növbəti belə tədbir Bərdə şəhərində Azərbaycanın Milli Qəhrəmanı Səfiyar Abuzər oğlu Behbudovun adını daşıyan tam orta



məktəbdə keçirildi. Mərasimdə məktəbin müəllim və şagird kollektivi, Vətən müharibəsi iştirakçıları, ictimaiyyətin nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları iştirak etdilər.

Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı Səfiyar Behbudovun həyat və döyüş yolu haqqında ətraflı məlumat verildi. Mərkəzin əməkdaşı Şəhla Abduləliyeva bildirdi ki, Səfiyar Behbudov 18 iyun 1967-ci ildə Bərdə rayonunun Mollalı kəndində anadan olub. Bərdə şəhər 6 saylı orta məktəbi bitirib. Sovet ordusu sıralarında xidmətini başa vurduqdan sonra hərbi komissarlığın təqdimatı ilə "Zabit hazırlığı kursu"na göndərilib. Kursu müvəffəqiyyətlə bitirən Səfiyara "kiçik leytenant" hərbi rütbəsi verilib. O, həmişə çalışqan, intizamlı, vətənpərvər gənc kimi tanınıb. 1988-ci ildə soydaşlarımızın ata-baba yurdlarından didərgin salınması, Qarabağda başlanan hadisələr, sərhədlərimizdə yaranan mürəkkəb vəziyyət onu da ciddi narahat edirdi. Həmişə soydaşlarımızın köməyinə çatmağa tələsirdi. Buna görə də könüllü olaraq Vətən müdafiəçilərinin sırasına qoşulub. Xocalı soyqırımından sonra o, döyüşlərə qatılır. İlk günlərdən ona bölük komandiri vəzifəsi həvalə olunur. Komandiri olduğu şəxsi heyət ilə birgə Tərtər, Ağdam bölgəsində keçirilən əməliyyatlarda düşmənin xeyli canlı qüvvəsini, texnikasını məhv edir. 1992-ci il martın 11-də düşmən Əsgəran yaxınlığındakı postlarımıza hücuma keçir və oranı mühasirəyə alır. Səfiyar döyüşə girir və düşmənin müqavimətini qıraraq mühasirədə olan döyüşçülərimizi xilas edir. Sonra gərgin döyüş zamanı düşmənlər onun PDM-ni vurur, bu zaman o, ağır yaralanır, onu əsir götürərək amansızcasına qətlə yetirirlər.



Nəşini çətinliklə də olsa 1992-ci il martın 21-də geri qaytarmaq və dəfn etmək mümkün olur.

1992-ci il iyunun 7-də Vətənə xidmətə və döyüşlərdə göstərdiyi şücaətə görə Behbudov Səfiyar Abuzər oğluna Azərbaycanın Milli Qəhrəmanı adı verilir. Onun xatirəsi təkcə bərdəlilərin deyil, bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Bərdə təhsil sektorunun müdiri İsa Abbasov, məktəbin direktoru Vüsalə Musayeva xalqımızın qəhrəmanlıq tarixində azadlıq, müstəqillik uğrunda mübarizənin həmişə davam etdirildiyini və bu yolda çətinliklərin aradan qaldırılmasında Ulu Öndər Heydər Əliyevin Vətənimiz, xalqımız qarşısında misilsiz xidmətlərindən danışdılar. Düşmən qüvvələrin həmişə xalqımıza, Vətənimizə qarşı qəddar, riyakar siyasət yeritdiklərini, dəfələrlə soyqırımı siyasəti həyata keçirdiklərini xatırlatdılar. Bildirdilər ki, XX əsrin əvvəllərindən başlayaraq havadarlarından dəstək alan erməni bolşevik birləşmələri ölkəmizin şəhər və kəndlərində millətimizə qarşı soyqırımı hadisələri törədiblər. Bütün bunlara baxmayaraq, xalqımız Vətəni, torpağı uğrunda həmişə qəhrəmanlıqla mübarizə aparmış, öz azadlığı və istiqlaliyyətinə qovuşmuşdur. Əsrin sonlarında yaranan ağır siyasi, iqtisadi durumdan və ölkəmizin müstəqilliyini itirmək təhlükəsindən xalqımızı Ulu Öndər xilas etdi. O, Azərbaycan dövlətçiliyinin müstəqilliyini qorumaqla ölkəmizin tarixində böyük dönüşə nail oldu. Qısa müddətdə yaradılan nizamlı ordu Ermənistan ordusuna qarşı uğurlu əməliyyatlar keçirdi. Bir neçə kənd və qəsəbələrimiz düşmən işğalından azad edildi. Onun layiqli siyasi davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ulu Öndərin möhtəşəm siyasətini davam etdirərək Azərbaycanı müasir dövrün tələblərinə uyğun olaraq inkişaf etdirdi. Ordumuz regionun ən güclü, qüdrətli ordusuna çevrildi. İşğalda olan torpaqlarımızın işğalçılardan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması Ali Baş Komandanın fəaliyyətində əsas yer tutdu. Böyük çətinliklərə, maneələrə, təhdidlərə, göstərilən ikili standartlara baxmayaraq, Ali Baş Komandan Vətən və xalq qarşısında şərəfli vəzifəsini uğurla yerinə yetirdi. Xalqımızın, ordumuzun möhtəşəm birliyi, Ali Baş Komandanın sərkərdəliyi ilə başlayan Vətən müharibəsi tarixi Zəfər yürüşü ilə başa çatdı.

Birinci Qarabağ müharibəsi iştirakçısı, ehtiyatda olan zabit Rafiq Qaraşov, Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan hərbçi Rafiq İbrahimov, Vətən müharibəsi iştirakçısı Ələkbər Əliyev rəşadətli ordumuzun Vətən müharibəsində qazandığı tarixi qələbədən, əsgər və zabitlərimizin tükənməz Vətən sevgisindən, xalqımızın dünyada qalib xalq kimi tanınmasından, yorulmaz fəaliyyəti ilə dünya miqyasında nüfuzlu dövlət xadimi kimi tanınan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Vətən və xalq qarşısında əvəzsiz xidmətlərindən danışdılar. Bildirdilər ki, onun Müzəffər Ali Baş Komandan kimi həyata keçirdiyi daxili və xarici siyasətin nəticəsində Vətənimizin tarixinə qızıl hərflərlə Böyük Qələbə salnaməsi yazıldı.

Milli Qəhrəmanın qardaşı Abuzər Behbudlu çıxış edərək Ulu Öndər Heydər Əliyev tərəfindən həmişə Vətən müharibəsi iştirakçılarına, şəhid ailələrinə yüksək diqqət və qayğı göstərilməsindən və həyata keçirilən məqsədyönlü tədbirlərdən danışaraq qeyd etdi ki, bu siyasət Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən də uğurla davam etdirilir. Şəhid ailələrinə, döyüşdə yaralananlara, Milli Qəhrəmanların ailələrinə göstərilən diqqətə, qayğıya görə dövlət rəhbərliyinə minnətdarlığımızı bildiririk.

Anım mərasimində "Əsgərə məktub" layihəsi də rəğbətlə qarşılandı. İctimaiyyət nümayəndələri, məktəblilər şanlı ordumuzun əsgərlərinə qürur dolu məktublar ünvanladılar. Qalib ordunun əsgər həyatından bəhs edən videoçarx nümayiş etdirildi. Məktəblilər şəhidlərə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan idmançısı atçılıq üzrə beynəlxalq turnirdə 5 qızıl medal qazanıb



Azərbaycan idmançısı Aydın Əlibəyov Rusiyanın Sankt-Peterburq şəhərində atçılığın dresaj növü üzrə keçirilən "Maksima Masters" Avrasiya Kubokunda yüksək nəticələr əldə edib.

İki gün davam edən turnirdə 3 atla iştirak edən təmsilçimiz cavan atlar arasında (5-7 yaş) yarışlarda dörd qızıl və "Prix Sant George" proqramı üzrə bir bürünc medal qazanıb.

O, "İntermediate 1 Freestyle" proqramında isə daha bir qızıl mükafata sahib çıxıb.

Qeyd edək ki, atçılığın dresaj növü üzrə ilk milli komanda Azərbaycan Respublikası Atçılıq Federasiyasının dəstəyi və təşəbbüsü ilə 2023-cü ildə yaradılıb. Yığmanın əsas məqsədi 2028-ci ildə ABŞ-ın Los-Anceles ştatında keçirilməsi planlaşdırılan Yay Olimpiya Oyunlarına vəsiqə qazanaraq ölkəni layiqincə təmsil etməkdir.

## Azərbaycanın paraatletika yığması dünya çempionatında tarixi uğura imza atıb



Paraatletika üzrə Azərbaycan milli komandası Yaponiyanın Kobe şəhərində təşkil edilən dünya çempionatında tarixi uğura imza atıb.

Yarışı ümumilikdə 4 qızıl mükafatla başa vuran yığma ilk dəfə mundialda medal əyarına görə belə nəticə göstərib.

Bunadək ən yaxşı göstərici 2011-ci ildə Yeni Zelandiyada keçirilmiş dünya çempionatında (3 qızıl, 1 gümüş və 2 bürünc medal) qeydə alınıb.

Qeyd edək ki, Yaponiyadakı yarışda Lamiyə Vəliyeva (T13) 100 metr və 400 metr məsafəyə qaçışda, Orxan Aslanov (T13) və Səid Nəcəfzadə (T12) isə uzunluğa tullanma üzrə yarışda qızıl medal qazanıblar.

## Azərbaycanın qadın güləşçisi Avropa çempionu olub



Azərbaycanın qadın güləşçisi Jalə Əliyeva Bakıda keçirilən U-23 Avropa çempionatında qızıl medal qazanıb.

57 kiloqram çəki dərəcəsində çıxış edən idmançı finalda türkiyəli Elvira Kamaloğluna 5:3 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, Avropa çempionatında Azərbaycan güləşçiləri ümumilikdə 11 medal qazanıblar. Ziya Babaşov (63 kq), Xasay Həsənli (77 kq) və Qurban Qurbanov (82 kq) qitə çempionu olublar. Nihad Quluzadə (60 kq) gümüş, Rəşad Məmmədov (55 kq), Ruslan Nurullayev (72 kq), Laçın Vəliyev (87 kq), Murad Əhmədiyev (97 kq), Elnurə Məmmədova (53 kq) və Ruzanna Məmmədova (59 kq) isə bürünc medala yiyələniblər.

## Azərbaycanın MMA döyüşçüsü qazaxıstanlı rəqibinə qalib gəlib



Azərbaycanın MMA döyüşçüsü Məhərrəm Həsənzadə növbəti görüşünü keçirib.

İdmançı Qazaxıstanın Almatı şəhərində keçirilən "Naiza & Fight nights" ilə birləşmiş beynəlxalq turnirində rinqə çıxıb.

Onun rəqibi qazaxıstanlı Bekzhan Utemisov olub. Qarşılaşma M.Həsənzadənin qələbəsi ilə başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

Baş miçman Cəfərov Rövşən Ayaz oğluna məxsus SQ № 0019444 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | kapitan Fuad CƏFƏROV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 282 Nüsxə 4650 |